

# ƏLLİ YAŞIN ƏLLİ ŞEİRİ

**Ehtiram İlhamın əlli yaşı yeddi ay əvvəl tamam oldu və bu "ekvator" yaşına o, "Çox yaşadım" şeirlər kitabıyla gəldi. O kitaba ünlü şairimiz Məmməd İsmayıl gözəl bir ön sözü yazıb və o, Ehtiramı təkcə istedadlı bir şair kimi deyil, həm də maraqlı bir insan kimi də təqdim edir.**

Ehtiram İlham tez-tez çap olunmasa da, şeirləri barədə çox nadir hallarda yazılar çap edilsə də, bir şair kimi yaşadığı Sumqayıt ədəbi mühitində də. Bakıda da, dünyaya göz açdığı Tovuzda da tanınır. O, yaradıcılıqda kəmiyyətə yox, keyfiyyətə fikir verir.

**Bir sərsəm, havalı könül işidir-**
**Qoşa bir ömürün dəli şeirini.**
**Dağların dumanı qoynuna ala,**
**Oxşaya səhərin yeli şeirini.**

**Ağrı elə doğma, dərd elə şirin...**
**Hər yerdə, həmişə tutur bir-birin.**
**Torpağı yad əldə qalan şairin**
**Kim təpər, kim təpər ölü şeirini?**

**Baxtından yarıyan ozan olurmu?**
**Ozan söyləyəni yozan olurmu?**
**Bitdi..daha bir də yazan olurmu-**
**Akif Səməd, Şaiq Vəli şeirini.**

**Mən sözün rəngində, səsində azdım,**
**Qələmin ucuynan gorumu qazdım.**
**Yazdım-ürəyimin qanıyla yazdım,**
**Bu əlli yaşımın əlli şeirini.**

Fikrimcə, bu şeir Ehtiramın kitabının proloqu olmalıdır.

Kitabın adı "Çox yaşadım"dır və Ehtiram bir neçə şeirində bunu həyatının kədərli boyaları ilə bağlayır. Çox yaşadım-məncə bu, o deməkdir ki, dünyanı, həyatı, insandarı dərk etmişəm, yaxşını da görmüşəm, pisi də. Dostu da sınamışam, məni sevməyənlərin də qınaqlarını eşitmişəm. Mənim aləmim təkcə bu deyilənlə məhdudlaşmır, Vətənimin taleyi də dərdimlə qoşadır.

**Yenə ən yanıqlı bir nəğmə kimi,**
**Adın dodaqlarda, Vətən, ay Vətən.**
**Səndə çörəyini tapa bilməyən**
**Gəzdi iraqlarda, Vətən, ay Vətən.**
**Sən--azın çoxusan, sən-çoxun azı,**
**Sonda sənə sarı hamının üzü.**
**Verdin Ehtirama ilhamı, sözü-**
**Qaldı varaqlarda, Vətən, ay Vətən.**

İlhamın şeirlərində kədər ayaq tutub yeriyir deyirlər, amma bu kədər işə ürəyinin işığını, ümidini itirmiş bir insanın kədəri deyil. Bu kədərin içində özünü dərk etmək meyli var.Özünü dərk et!-onda dünyanı da dərk edərsən. Məncə, Ehtiram şeirə də, yazdıqlarına da elə bu meyarla yanaşır. Deyir ki:

**Vüsala təşnədi, həsrətə həmdəm,**
**Sevincdən qaçanda yapışır qəmdən.**
**Həm könül həmdəmim olubdu, həm də**
**Olubdu başımın bəlası şeir.**

**Özümün özümə dediyim yalan,**
**Özümün .zümdə qopduğu tufan,**
**Özümün özümə tutduğu divan,**
**Özümün özümdən qisasım şeir.**



Amma Ehtiramın başqa bir şeiri də var ki, o şeirdə "sevən könüllərdə tufan qoparar...ürəkdən üzülüb, candan qorarmış...sənin əllərinlə yazılan şeir".

Kitabda "Anama yazdıqlarım" silsiləsi fikrimcə, Ehtiramın doğrudan da çəkdiyi ağrını ən kamil şəkildə ifadə etməyin nümunəsidir. Ana ölümünə Azərbaycan poeziyasında onlarla, yüzlərlə şeirlər yazılıb. İçərisində əsil şeir duyğusu ilə qələmə alınanları az deyil. Ehtiramın bu silsiləsini də mən o sıraya qata bilərəm. Təkcə ana ödümündən doğan itkini, kədəri təsvir etmək azdır, şeirdə həm də ananın öz obrazı da yaranmalıdır.Kim idi bu ana? "Evim, qallam, bürcüm, dağım, Arxam, önüm, solum, sağım, Mənim ən çox yaşatdığım- Ən çox öldürdüym adam...Dərgahı səcdəmin yeri, Allahım dediyim adam".

**Sənsiz nə ünvanım.sənsiz nəı adım,**
**Halıma acıyır uzağım,yadım,**
**Vaxtında başına dolanammadım,**
**Qəbrinin başına dönürəm indi.**

Və burada Ehtiramın dünyadan vaxtsız köçən oğlu İlhama həsr etdiyi şeirləri də onun qəm dünyasının ildən-ilə boy atan acıları, ağrıları hesab edirəm.

Çox danışdıfm Ehtiramın qəmindən, kədərindən. Amma bunların hamısı yaşanılan hisslərdir ki, şeirə köçür. Daha doğrusu, Ehtiram kədərinin poeziyasını, poeziyanın kədərinə çevirir. Amma onun elə şeirləri var ki, orada :

**Səni gördüyümüz hər gün,**
**Günlərin göyçək günüdür.**
**Sənin günün- sənin kimi**
**Hamını sevmək günüdür.**

**Yoğruldun şeirdən, sazdan,**
**Bir havalı xoş avazdan,**
**Alçaq könül, sevdalı san,**
**Bir dəli ürək günüdüyr.**

**Sözdən çələng hörə-hörə**
**Çiçək səpdin könüllərə.**
**Bu gün təkcə sənə görə**
**Dünyanın çiçək günüdür.**

Ehtiramın şeirləri hecanın müasir biçimindədir, yəni klassik qoşma, gəraylı tipində deyil. Amma istər-istəməz aşıq şeiri, xalq poeziyası ilə ilişgiləri də var.

Şeirdə fitkirlə hiss vəhdət təşkil edir və bu, poeziyanın əbədi-əzəli qanunudur. Deyim ki, əlii şeirin əllisi də bu prinsipə uyğun gəlir, yalan söyləmiş olaram. Amma fikirlıə hissin vəhdətini əks etdirən şeirlər daha çoxdu. Və əksər şeirləri də də hisslər, duyğular üstüyndə köklənib. Təbii ki, bu tipli şeirlərdə fikir də hissə tabe olur.

**Çox da ki, çəməni çiçək-çiçəkdir,**
**Dərib qoxlamaram, gül orucuyam.**
**Elə odlandırıb, közüm qalmayıb**
**Bir ocaq yerində kül orucuyam.**

**Könlümə arzular dolandan bəri.**
**Bircə istəyimi görmədim diri.**
**Şeytanın əlinə verib günləri,**
**Mən ay tamarzısı, il orucüyam.**

**Yenə bürüyübdü dağlarını çən,**
**Torpağı tökülən qanla ölçülən,**
**Bütövlük istəyən bir halal Vətən,**
**Halallıq diləyən el orucuyam.**

Müasir hecə şeirin bu tipli nümunələrinə Ehtiramın daha bir neçə şeirində də təsadüf etdim. "Dərib qoxlamaram, gül orucuyam"-belə orijinal misralavrın sayı daha çox ola bilər.

Ehtiramın əllinci şeirinə müraciət edirəm-"Çox yaşadım".Məncə, "Çox yaşadım" Ehtiramın həyatdan, gerçəklikdən küskünlüyinin səmimi etirafıdır. "Yaşada bilmədim özümü neynim, Elə çox yaşadım, çox yaşadım ki". Əlli yaşlı Ehtiram elə bilirəm, bu şeirlə kədərin vida nəğməsini oxuyur. Və dünyanın çiçək günlərinin çiçək şeirləri ilə sevindirəcək onu sevənləri...